

# İNSAN HÜQUQLARI ÜZRƏ AVROPA MƏHKƏMƏSİNİN QƏRARLARININ İCRASI: AZƏRBAYCAN

Avropa İcra Şəbəkəsi
Yanvar, 2021-ci il

Avropa İcra Şəbəkəsi (AİŞ) İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin (İHAM) qərarlarının tam icra edilməsini və bununla da real dəyişikliyə nail ola bilməsini təmin etmək üçün bütün Avropa ərazisində fəaliyyət göstərən QHT-lərlə və digər təşkilatlarla əməkdaşlıq edir.

İHAM qərarlarının icrası ilə bağlı fəaliyyətin maksimum dərəcədə uğurlu olması üçün milli səviyyəli təşviqat səyləri Avropa Şurası Nazirlər Komitəsinin həyata keçirdiyi icraya nəzarət prosesində iştirakla müşayiət olunmalıdır.

AİŞ təşviqat, təlim və resurslar vasitəsilə, hər iki səviyyədə aparılan işləri dəstəkləyir.

© Avropa İcra Şəbəkəsi
2 allée René Cassin, F- 67000 STRASBURQ, FRANSA
contact@einnetwork.org

Müəllif: Matteo Zamboni
Konsepsiya: George Stafford və Ioana Iliescu
Üz qabığındakı foto: İltun Hüseynli, Unsplash.com vasitəsilə
Son səhifədəki foto: Alvin Mahmudov, Unsplash.com vasitəsilə

Bu sənəddəki statistik məlumatlar 27 noyabr 2020-ci ilə olan vəziyyəti əks etdirir. Onlar qeyd olunan tarixdə Avropa Şurasının qərarların icrası üzrə məlumat bazasından – HUDOC-EXEC-dən götürülmüşdür.

2021-ci ilin yanvar ayında nəşr olunmuşdur.

# ÖN SÖZ

İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin qərarları haqlı olaraq, insan hüquqları pozulmuş şəxslər üçün ədaləti təmin edən bir vasitə kimi tanınır. Lakin onlar insan hüquqlarının müdafiəsi istiqamətindəki addımların yalnız birincisidir. Təəssüf ki, qərarlar çox uzun müddət icrasını gözləyə bilər. Bu isə o deməkdir ki, insan hüquqlarının pozulması halları baş verməyə davam edə bilər. AİŞ, Avropa Şurasına üzv olan dövlətlərdə qərarların icrası vəziyyətini təhlil etməklə bu kimi nümunələri vurğulamağa səy göstərir. Bununla, biz İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin qərarlarının icrası barədə məlumatlılığı artırmağa, hökumətləri və vətəndaş cəmiyyətini qərarların icrasında fəal rol oynamağa stimullaşdırmağa ümid edirik.



Hazırkı hesabatda Azərbaycanda qərarların icra olunma vəziyyəti nəzərdən keçirilir. Bu sahədə vəziyyətin yaxşılaşmasına böyük ehtiyac duyulur. Hal-hazırda hələ də icrasını gözləyən 43 presedent yaradan qərar vardır. Bunların hər biri insan hüquqları sahəsində hələ də öz effektiv həllini tapmamış sistemli və təkrarlanan bir problemi əks etdirir. Bundan əlavə, presedent yaradan qərarların öz icrasını gözlədiyi orta müddət 7 ildən artıqdır (statistik məlumatlar və təhlilimiz üçün 6-10-cu səhifələrə baxın).

Rəqəmlər onu göstərir ki, Azərbaycanın səlahiyyətli orqanlarının qərarların icrası prosesində iştirakı baxımından ciddi problem mövcuddur. Nəticədə, milli qanunvericiliyi, siyasətləri və təcrübələri insan hüquqları üzrə Avropa standartlarına uyğunlaşdırmaq imkanları itirilir, hüquq pozuntuları isə təkrarlanmağa davam edir. Hüquq müdafiəçilərinin, jurnalistlərin və fəalların əsassız təqibi, QHT-lərin fəaliyyətini tənzimləyən qanunvericiliyin məhdudlaşdırıcı xarakter daşıması, sərbəst və ədalətli seçki hüququnun pozulması və məhkəmələrin müstəqilliyinin məhdudlaşdırılması vacib islahatların aparılmasının zəruri olunduğu sahələrdən bəziləridir.

Biz Avropa Şurasının digər üzv dövlətlərində milli səlahiyyətli orqanlarla vətəndaş cəmiyyətinin güclü əməkdaşlığı sayəsində İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin qərarlarının sistemli şəkildə icra olunmasına nail olunduğunun şahidi olmuşuq. Müstəqil vətəndaş cəmiyyətinin öz səsini qərar qəbul edən orqanlara çatdırmaq imkanı, eləcə də səmərəli fəaliyyət göstərmək üçün zəruri qanunvericilik mühiti ilə təmin olunması ciddi irəliləyişə, İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin qərarlarının insan hüquqlarının müdafiəsinin təminatlarına çevrilməsinə gətirib çıxara bilər. Ümid edirik ki, hazırkı hesabatın yayılması Azərbaycanda qərarların icrası üzrə aparılacaq gələcək işlər üçün məlumat mənbəyi rolunu oynayacaqdır.

*Professor Başak Çalı, AİŞ-in sədri*

# QƏRARLARIN İCRASI NƏ ÜÇÜN ÖNƏMLİDİR?
# *"Məmmədli Azərbaycana qarşı"* işi və hüquq müdafiəçilərinə təzyiqlər

Anar Məmmədli Azərbaycanda bir neçə QHT təsis etmişdir. Onlardan biri 2013-cü il prezident seçkilərində genişmiqyaslı pozuntuların baş verdiyini iddia edən hesabat dərc etdikdən sonra, o, ədalətsiz şəkildə cinayət təqibinə məruz qalmış, barəsində həbs qətimkan tədbiri seçilmiş və 5 ildən artıq müddətə azadlıqdan məhrum edilmişdi. Vətəndaş cəmiyyəti və beynəlxalq təşkilatlar onun işi ilə bağlı narahatlıq ifadə etmiş, onun həbsini QHT liderlərinin əsassız təqibinin bir nümunəsi hesab etmiş və onun dərhal azad edilməsinə çağırış etmişdilər. Buna baxmayaraq, cənab **Məmmədli İHAM-a ərizəsini göndərəndə** və hətta "Vaclav Havel adına İnsan Haqları Mükafatı"na layiq görüləndə **hələ də həbsdə idi**. Sonda, onun hüquqlarını bərpa edən qərar çıxarılmış və qərarda **QHT-lərin fəaliyyəti üçün mövcud olan qanunvericilik mühitinin məhdudlaşdırıcı olduğu vurğulanmış**, "Məmmədov" və "Cəfərov" işləri kimi analoji işlər də nəzərə alınaraq qeyd edilmişdi ki, bu vəziyyət **insan hüquqlarına narahatedici basqıların** olduğunu üzə çıxarıb.

Cənab Məmmədli azadlığa buraxılsa da, qərarın çıxarılmasından bir il keçməsinə baxmayaraq, ona kompensasiya ödənilməmiş və məhkumluğu üzərindən götürülməmişdi. Səlahiyyətli orqanların hərəkətsizliyini görən Nazirlər Komitəsi (NK) aralıq qətnamə qəbul edərək, **"hökumət tənqidçilərinin narahatlıq doğuran əsassız həbsi və tutulması tendensiyası"nın** olduğunu qeyd etmişdi. Növbəti təqdimatlarında cənab Məmmədli NK-yə məlumat verərək, kompensasiyanın ödənildiyini, **lakin məhkumluğun hələ də qaldığını və onun siyasi fəaliyyətini bərpa etməsinə mane olduğunu** qeyd etmişdi.

**Konvensiya sistemi insanların həyatlarında real dəyişikliklər yaratmaq və bütün Qitədə müsbət dəyişikliklərə səbəb olmaq gücünə malikdir**

(Avropa Şurasının Baş Katibi, 4 sentyabr 2020-ci il, DC 106 (2020))



Hikmət Qafarzadə, Unsplash.com vasitəsilə

2020-ci ilin aprel ayında Ali Məhkəmə haqsız siyasi təqibə məruz qalmış və cənab Məmmədli ilə oxşar vəziyyətdə olan iki nəfərin – İlqar Məmmədovun və Rəsul Cəfərovun məhkumluğunu ləğv etdi. Onlara həm də qanunsuz həbslərinə və azadlıqdan məhrum edildiklərinə görə kompensasiya verildi. Lakin cənab Məmmədli və Avropa Məhkəməsinin siyasi təqib qurbanları hesab etdiyi on nəfərdən artıq şəxs üçün ədalət bərpa olunmadı.

Bir qrup QHT-nin təqdimatlarında xatırladıldığı kimi, "hökuməti tənqid edən müstəqil QHT-lərin qanuni fəaliyyətinə mane olmaq" yolu ilə "**dinc fərqli düşüncənin sistemli repressiyalara və siyasi təqibə məruz qalması**" o dərəcədə ciddidir ki, "**hətta siyasi motivli təqibin qurbanları azadlığa buraxılanda belə, onların məhkumluğu saxlanılır**", bu isə onların öz fəaliyyətini həyata keçirməsinə, bank hesablarından istifadə etməsinə, seçkidə namizədliyini irəli sürməsinə və ya xaricə səyahət etməsinə mane olur. Hakimiyyət isə bu iddiaları təkzib edərək, məhkumluğu ləğv edə bilməməsinin səbəbi kimi COVİD-19 pandemiyasını və hərbi vəziyyəti göstərmiş, eyni zamanda, məhkəmə müstəqilliyini gücləndirmək məqsədi güdən öhdəlikləri özündə ehtiva edən 2019-cu il tarixli tədbirlər planında nəzərdə tutulan ümumi xarakterli tədbirlərə istinad etmişdir. Nazirlər Komitəsi özünün son qərarında **"fərdi tədbirlərin əlavə gecikməyə yol vermədən görülməsinin təmin edilməməsi"** ilə bağlı **"dərin narahatlıq"** ifadə etmişdir.

# QƏRARLARIN İCRASI NECƏ BAŞ VERİR

"Məmmədli" işlər qrupu yerli və beynəlxalq QHT-lərin Avropa Şurası (AŞ) və digər beynəlxalq təşkilatlarla birlikdə, səlahiyyətli orqanların hərəkətsizliyinə baxmayaraq aktual insan hüquqları probleminin həlli istiqamətində birgə səy göstərməsinin bir nümunəsi kimi götürülə bilər.

**İHAM-ın qərarı**

İHAM özünün 19 aprel 2015-ci il tarixli qərarında cənab Məmmədlinin məruz qaldığı qanunsuz məhkəməyədək həbslə bağlı olaraq **5-ci maddənin** çoxsaylı **pozuntusunu** və **"qisas xarakterli təqiblər və qanunun aliliyinə məhəl qoyulmadan cinayət qanunvericiliyinin sui-istifadəsi yolu ilə hökumət tənqidçilərinin, vətəndaş cəmiyyəti fəallarının və hüquq müdafiəçilərinin narahatlıq doğuran əsassız həbsi və tutulması tendensiyası**" ilə bağlı olaraq **18-ci maddənin pozuntusunu** tanımışdır. QHT-lər və AŞ-ın insan hüquqları üzrə komissarı iş üzrə üçüncü tərəf kimi işə qoşulmaq üçün müraciət etmişdir.

**AŞ və digər beynəlxalq təşkilatların iştirakı**

2011-ci və 2014-cü illərdə **Venesiya Komissiyası** iki rəy verərək qeyd etmişdir ki, Azərbaycanın QHT-lərə dair qanunvericiliyi vətəndaş cəmiyyətinin fəaliyyətini həddən artıq məhdudlaşdırır və Avropa standartlarına cavab vermir. Bundan başqa, ərizəçinin həbsindən sonra, **AŞ Parlament Assambleyası** bəyannamə qəbul edərək, onun dərhal azad olunmasına çağırış etmişdir. Bu çağırışlara BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarı da qoşulmuş və eyni mövqeyi Avropa Parlamenti də hüquq müdafiəçilərinə qarşı artan hədə-qorxu, repressiya və təqibləri pisləyən bir neçə qətnaməsində nümayiş etdirmişdir.

**Yerli QHT-lərin rolu**

QHT-lər ərizəçinin həbsini qisas xarakterli tədbir kimi dərhal pislədilər. İHAM-ın qərarı çıxarılandan sonra SMDT (Seçkilərin Monitorinqi və Demokratiyanın Tədrisi Mərkəzi) Nazirlər Komitəsinin Qaydalarının 9.2-ci Qaydası çərçivəsində NK-yə təqdimat vermiş və çox keçmədən beynəlxalq və yerli QHT-lərdən ibarət koalisiya da ona qoşularaq "**cinayət qanunvericiliyindən və məhdudlaşdırıcı xarakterli QHT qanunvericiliyindən tənqidçilərə qarşı silah kimi geniş istifadə olunmasından**" narahatlıqlarını ifadə etmiş və qeyd etmişdilər ki, "**pandemiya başlayandan bəri hökumət fərqli düşünənlərə qarşı təzyiqləri davam etdirərək 100-dən artıq müxalifət liderini, tərəfdarını və fəalı həbs edib**". Bu fikirlər NK-nin nümayəndələri ilə 2019-cu ilin may ayında keçirilmiş brifinqdə səsləndirilmişdir.

**Hökumət tərəfindən görülən tədbirlər**

Cənab Məmmədli həbsdən azad edilmiş və ona İHAM-ın qərarında onun üçün nəzərdə tutulmuş kompensasiya ödənilmişdir. Lakin oxşar hüquq pozuntularına məruz qalmış digər iki şəxsdən fərqli olaraq, onun haqsız məhkumluğu hələ də ləğv edilməmişdir. Səlahiyyətli orqanlar **COVİD-19-un yayılmasının azaldılması və hərbi vəziyyətə bağlı məhdudiyyət tədbirləri başa çatan kimi** zəruri tədbirləri görəcəyini vəd etmişdir.

**Nazirlər Komitəsi səviyyəsində nəzarət prosesi**

NK aralıq qətnamə ilə "səlahiyyətli orqanları təkidlə bütün zəruri fərdi tədbirlərin əlavə gecikməyə yol vermədən görülməsini təmin etməyə çağırmışdır". Səlahiyyətli orqanların hərəkətsizliyini görən NK son qərarında bu çağırışları bir daha təkrarlamış və ərizəçilərin məhkumluqları ləğv edilənə qədər bu qrupa aid işləri özünün bütün iclaslarında araşdırmağa davam etməyi qərara almışdır.

# İCRA PROSESİNİN QİYMƏTLƏNDİRİLMƏSİ
## Əsas göstəricilər (1)

**İcrasını gözləyən presedent yaradan qərarların sayı**

**43**

2020-ci ilin oktyabr ayına olan vəziyyətə görə, İHAM-ın Azərbaycana qarşı işlər üzrə 43 presedent yaradan qərarı hələ də icrasını gözləyir. Bu o deməkdir ki, qərarlarda **müəyyən olunmuş insan hüquqları ilə bağlı problemlər həll edilməyib** və buna görə də, onların təkrar baş verməsi ehtimalı vardır.

**Presedent yaradan qərarların öz icrasını gözlədiyi orta müddət**

**7 il 2 ay**

İcrasını gözləyən presedent yaradan işlərin yığılıb qalmasının səbəbi **hər presedent yaradan qərarın icra edilib tamamlanması üçün orta hesabla tələb olunan müddətin kifayət qədər uzun olması**dır ki, bu müddət bütün region üzrə ən yüksək göstəricilərdən biridir və qərarların icrası prosesində yüklənməyə səbəb olur.

**Presedent yaradan qərarlar** dedikdə, ölkədə **yeni ciddi və ya sistemli problemi** müəyyən edən qərarlar nəzərdə tutulur. Buna görə də, hər bir presedent yaradan qərar icra prosesi vasitəsilə həll edilməli olan bir insan hüquqları problemini əks etdirir.

**İcra edilmiş presedent yaradan qərarların xüsusi çəkisi**nin müəyyən edilməsi ölkədə İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin qərarlarının yerinə yetirilməsi sahəsində ümumi islahatların aparılıb-aparılmadığını qiymətləndirmək baxımından faydalıdır.

**İcrasını gözləyən presedent yaradan işlərin ümumi sayına** da baxılması zəruridir. Qərarların icrası ilə bağlı problemin ən ciddi olduğu ölkələrdə hələ də icrasını gözləyən presedent yaradan işlərin həm xüsusi çəkisi, **həm də** ümumi sayı yüksək olur.

# İCRA PROSESİNİN QİYMƏTLƏNDİRİLMƏSİ
## Əsas göstəricilər (2)

Azərbaycana qarşı son 10 ildə çıxarılmış **28** presedent yaradan qərarın yalnız **2**-si icra olunub. Bu o deməkdir ki, İHAM tərəfindən çıxarılmış son qərarların (və onların müəyyən etdiyi sistemli insan hüquqları problemlərinin) **onda doqquzundan çoxu** səlahiyyətli orqanlar tərəfindən hələ də öz həllini tapmamışdır. Bu qərarlarda vurğulanan problemlərin həlli üçün tələb olunan ümumi qanunvericilik və/ya siyasət islahatlarının yoxluğu fonunda həmin hüquq pozuntularının təkrar baş vermək ehtimalının olmasını nəzərə aldıqda, yuxarıda qeyd olunan rəqəmlər daha çox əhəmiyyət kəsb edir.

**Son 10 ilə aid, hələ də icrasını gözləyən presedent yaradan qərarların sayı**




**Tədbirlər Planının/Tədbirlər üzrə hesabatın təqdim edilmədiyi presedent yaradan qərarların faiz göstəricisi**




İcrasını gözləyən presedent yaradan qərarlara ümumi nəzər yetirdikdə, qeyd etmək lazımdır ki, bu işlərin az qala hər 10-dan 8-də səlahiyyətli orqanlar hələ də **Tədbirlər Planı** (qərarın icrası üçün nəzərdə tutulan addımları təsvir edən sənəd) və ya **Tədbirlər üzrə Hesabat** (uğurla görülmüş tədbirlərin ümumi şərhi) təqdim etməyib. Bu hal qərarların icrasına böyük maneədir, çünki Tədbirlər Planı və/ya Tədbirlər üzrə Hesabatın yoxluğu icra prosesinə münasibətdə hökumətin hərəkətsizliyindən xəbər verir.

# İCRA PROSESİNİN QİYMƏTLƏNDİRİLMƏSİ
## Pozuntunun növü

İcra edilmiş/icra edilməmiş presedent yaradan qərarların faiz göstəricisi ilə yanaşı, Avropa Məhkəməsinin icrası gözlənilən presedent yaradan qərarlar vasitəsilə müəyyən etdiyi **pozuntunun (pozuntuların) xarakterini** də qeyd etmək vacibdir.




### Təkrarlanan pozuntular

**İcrasını gözləyən 8 presedent yaradan qərar** qanunsuz həbs qətimkan tədbiri ilə bağlı olaraq azadlıq hüququnun pozulmasına aiddir. "*Məmmədli*" işlər qrupunda bu pozuntu **18-ci maddənin** pozuntuları ilə müşayiət olunur, belə ki, ərizəçiləri hüquq müdafiə fəaliyyətlərinə görə cəzalandırmaq və onları susdurmaq məqsədilə onların barəsində həbs qətimkan tədbiri seçilmişdir.

İcrasını gözləyən presedent yaradan qərarlar arasında, cəzaçəkmə müəssisələrində və digər saxlama yerlərində saxlanma şəraiti və/ya polis/təhlükəsizlik qüvvələri tərəfindən həddən artıq güc tətbiqi və ya işgəncə ilə bağlı olaraq **işgəncə və qeyri-insani və/yaxud ləyaqəti alçaldan rəftar qadağasının pozulmasına aid olan 6 qrup** mövcuddur.

**Ədalətli məhkəmə hüququnun** aşkar edilmiş bir sıra **pozuntuları** (ümumilikdə 19) **məhkəmə sistemində həqiqi müstəqilliyin olmaması** ilə bağlı narahatlıqlar doğurur.

# TƏHLİL
# İHAM qərarlarının icrası vəziyyəti (1)

Statistika göstərir ki, **İHAM qərarlarının Azərbaycanda icrası vəziyyətinin yaxşılaşmasına ciddi ehtiyac vardır**. Avropa Şurasına üzv olan bütün dövlətlər arasında Azərbaycan son 10 ilə aid olan və hələ də icrasını gözləyən presedent yaradan işlərin ən yüksək xüsusi çəkisinə malikdir. Bunu da qeyd etmək vacibdir ki, icra olunmamış qərarların bir çoxu bütövlükdə vətəndaş cəmiyyətinin və xüsusilə **insan hüquqları təşkilatlarının** fəaliyyətinə **davamlı və sərt hücumları** nümayiş etdirir.

Bu onu göstərir ki, səlahiyyətli orqanlar İHAM qərarlarının icrasında real problemə malikdir və onlar, görünür ki, **təkrarlanan hüquq pozuntularının qarşısını almaq üçün zəruri olan tədbirləri qəbul etmək üçün vasitələrə və ya iradəyə malik deyi**l. Bu fakt ayrı-ayrı işlərin təhlili ilə də təsdiqlənir. Belə ki, bu işlər İHAM tərəfindən müvafiq qərarların çıxarılmasından bir çox illər keçsə də, ölkədə hələ də ciddi insan hüquqları problemlərinin olduğunu göstərir.

**Seçkilərin Monitorinqi və Demokratiyanın Tədrisi Mərkəzi (SMDT)** və **Bakı İnsan Hüquqları Klubu** Azərbaycanda İHAM qərarlarının icra olunmaması məsələsi üzərində geniş iş aparan iki qeyri-hökumət təşkilatıdır. Biz onlardan ölkədə İHAM qərarlarının sistemli icrasının baş verməməsinin səbəblərini nədə gördüklərini soruşduq. Onlar cavablarında aşağıdakı narahatlıqları ifadə etdilər:

- İHAM qərarlarının sistematik icrasına əsas maneə buna **siyasi səviyyədə müqavimətin olması, bununla yanaşı sərt iyerarxik institusional çərçivənin olması və** dövlət məmurları arasında kök salmış bürokratik düşüncə tərzinin mövcud olmasıdır.
- Problemin kökündə dayanan səbəblər **hakimlərin, prokurorların və digər nəzarətçi dövlət qurumlarının həqiqi müstəqilliyinin olmaması** və bunun nəticəsi olaraq ölkədaxili səviyyədə hüquq pozuntularından şikayət etmək üçün təsirli hüquqi müdafiə vasitələrinin yoxluğudur.

**Əsassız təsir göstərmək təcrübəsi sistemdə o dərəcədə kök salmışdır ki, çox vaxt dövlət məmurları hətta səlahiyyətləri olsa belə müstəqil hərəkət etməyə cəsarət etmirlər**
**(Anar Məmmədi, Seçkilərin Monitorinqi və Demokratiyanın Tədrisi Mərkəzinin sədri)**

- Vəziyyəti daha da ağırlaşdıran bir məqam **QHT-lərin öz fəaliyyəti zamanı riayət etməli olduğu qanunvericilik bazasının xeyli məhdudlaşdırıcı xarakterli olması**dır ki, bu da hüquq müdafiə fəaliyyətinin tam olaraq qarşısını almasa da, onu həddən artıq çətinləşdirir və riskli edir.
- Qeyd olunanların fonunda, **qanunvericilik islahatları** dövlət aparatının yanaşmasını dəyişmək məqsədi daşıyan adekvat təşəbbüslərlə müşayiət olunmazsa, **özlüyündə problemin həlli üçün yetərli olmaya bilər**.

# TƏHLİL
# İHAM qərarlarının icrası vəziyyəti (2)

Azərbaycan QHT-ləri həmçinin ölkənin İHAM qərarlarının icrası ilə bağlı göstəricilərini yaxşılaşdırmaq üçün aşağıdakı ideyaları tövsiyə kimi irəli sürüb:

- Ölkədə insan hüquqlarının vəziyyətinin hər hansı dərəcədə yaxşılaşması **məhkəmə müstəqilliyinin və düzgün təcrübənin təmin edilməsinə yönələn** hərtərəfli **məhkəmə islahatı** (hakimlərin seçilməsi və təyinatı prosesi, dəyişməzlik prinsipi və onların əməyinin ödənişi daxil olmaqla) ilə şərtlənir.

- Avropaya inteqrasiya da İHAM qərarlarının icrası baxımından önəmli ola bilər. Belə ki, **AŞ və Avropa İttifaqı (Aİ) institutları** milli qanunvericiliyin insan hüquqları standartlarına uyğunlaşdırılması üçün **zəruri islahatların qəbulu məqsədilə səlahiyyəti orqanlara beynəlxalq təzyiq göstərmək imkanına malikdirlər**. Bundan əlavə, **ölkənin tədricən beynəlxalq ticarətə və malların, xidmətlərin, kapitalın və insanların sərbəst hərəkətinə açılması**nın hesabatlılıq, şəffaflıq və demokratiya prinsiplərini inkişaf etdirəcəyinə ümid edilir.

”

**Bu çətin vəziyyətin öhdəsindən gəlmək üçün bizim vətəndaş cəmiyyəti təşkilatlarında, eləcə də dövlət qurumlarında yeni nəsil hüquq müdafiəçilərinə ehtiyacımız var**
**(Rəsul Cəfərov, Bakı İnsan Hüquqları Klubunun təsisçisi)**

- Milli səviyyədə hüquq müdafiə fəaliyyətinin məhdudiyyətlər altında həyata keçirildiyini nəzərə alaraq, potensialın gücləndirilməsi təşəbbüsləri, maliyyələşdirmə proqramları və qrantlar vasitəsilə onun **Avropa vətəndaş cəmiyyəti, hüquq müdafiə təşkilatları və beynəlxalq institutlar tərəfindən dəstəklənməsinə ehtiyac duyulur.**

- Əvvəllər oxşar vəziyyətdə olmuş başqa dövlətlərin təcrübəsindən qabaqcıl təcrübələri götürmək lazımdır. Bu baxımdan, **xarici ölkələrdən və beynəlxalq qurumlardan və/yaxud təşkilatlardan olan insan hüquqları ekspertlərinin verə biləcəyi töhfənin əhəmiyyəti** yüksək qiymətləndirilməlidir.

”

**Həqiqi müstəqil media yaradılmadan, jurnalistlər və hüquq müdafiəçilərini adekvat müdafiə ilə təmin etmədən hər hansı yaxşılaşmanı proqnozlaşdırmaq qeyri-mümkündür**
**(Anar Məmmədli, Seçkilərin Monitorinqi və Demokratiyanın Tədrisi Mərkəzinin sədri)**

- **Milli İnsan Hüquqları üzrə Müvəkkil** İHAM qərarlarının icrası prosesində sistematik şəkildə iştirak etməlidir. Bundan başqa, **sırf qərarların icrası ilə məşğul olan parlament komitəsi** yaradılmalı və vətəndaş cəmiyyətinin rəy və təkliflərini nəzərə almağa açıq olmalıdır.

# KEYS TƏHLİLİ (1)
# Azad və ədalətli seçki hüququ

Nemət Əliyev 2005-ci il parlament seçkilərində namizədliyini irəli sürmüş və səsvermə zamanı yol verilən bir sıra pozuntuları tənqid etmiş müxalif siyasətçidir. O, Dairə Seçki Komissiyasına şikayət verərək **seçkinin qanunsuz müdaxilə və topa bülleten atma yolu ilə saxtalaşdırıldığını** iddia etmiş, lakin onun şikayəti Mərkəzi Seçki Komissiyasının, daha sonra isə Apelyasiya Məhkəməsinin və Ali Məhkəmənin təsdiq etdiyi qərarla rədd edilmişdir. Cənab Əliyev bundan sonra İnsan Hüquqları üzrə Avropa Məhkəməsinə müraciət edərək seçki qanununun çoxsaylı pozuntusundan və milli səlahiyyətli orqanların bu pozuntuları aradan qaldırmamasından şikayət etmişdir. Qısacası, o, seçkilərin azad şəkildə keçirilmədiyini və səlahiyyətli orqanların pozuntuları ört-basdır etdiyini iddia etmişdir. İHAM onun xeyrinə qərar qəbul edərək, hesab etmişdir ki, **ərizəçinin şikayətinə baxan milli səlahiyyətli orqanlar onun mübahisəli (və həqiqətən çox ciddi olan) iddialarını mahiyyəti üzrə araşdırmamaq üçün həddən artıq formal yanaşmaya əsaslanmış**, bununla da onun seçkilərdə namizədliyini irəli sürmək hüququnu müdafiə etmək üçün həqiqi səy göstərməmişdir.

Lakin cənab Əliyevin işi nadir hal deyildir. İHAM-a buna oxşar onlarla şikayət daxil olmuş və bu iş **2005-ci və 2010-cu il parlament seçkiləri zamanı Konvensiyanın 1 saylı Protokolunun 3-cü maddəsinin pozuntuları ilə bağlı olan digər 22 işdən ibarət işlər qrupuna** daxil edilmişdir. İcra prosesinin gedişatında Azərbaycan 4 iş istisna olmaqla bütün işlər üzrə Məhkəmənin müəyyən etdiyi ədalətli kompensasiyanı ödəmişdir. Bununla belə, Nazirlər Komitəsinin bir sıra qərarlarına baxmayaraq, ümumi xarakterli tədbirlər hələ də həyata keçirilməyib.

> **... hazırkı işdə seçki komissiyalarının və məhkəmələrin davranışı və onların müvafiq qərarları ərizəçinin seçkidə namizədliyini irəli sürmək hüququnun müdafiəsi üçün hər hansı həqiqi narahatlığın çatışmazlığı görüntüsünü aşkar etmişdir**
> **(*Nemət Əliyev Azərbaycana qarşı*, 8 aprel 2010-cu il, 90-cı bənd)**



Michael_Swan, Flickr.com vasitəsilə

Bir neçə tədbirlər planında və kommunikasiya sənədlərində, səlahiyyətli orqanlar Avropa Şurasını 2008-ci ildə Seçki Məcəlləsinə edilən dəyişikliklər və 2014-cü ildə "Məhkəmələr və hakimlər haqqında" qanunun islahatının aparılması barədə məlumatlandırmışdır. Lakin SMDT-nin təqdim etdiyi iki kommunikasiya sənədində müəyyən edildiyi kimi, **seçki komissiyalarının və məhkəmələrin seçki hüquqları ilə bağlı məsələləri həll etmək formasına təsir edən struktur xarakterli problemlər** hələ də qalmaqdadır, belə ki, səlahiyyətli orqanlar bu problemlərin kökündə duran səbəbləri, məsələn **məhkəmə və digər dövlət orqanlarında həqiqi müstəqilliyin olmaması** problemini aradan qaldırmayıb.

Nazirlər Komitəsi **2020-ci il parlament seçkilərinə qədər hüquqi bazaya əsaslı dəyişikliyin edilməməsinə** görə təəssüfünü ifadə etdiyi ən son qərarlarında bu arqumentlərə əsaslanmışdır.

Həqiqətən də, ATƏT-in və AŞPA-nın 2020-ci il və 2018-ci il seçkiləri haqqında hesabatlarında qeyd olunur ki, **seçki komissiyaları şikayətlərə ziddiyyətli şəkildə baxmış**, bununla da seçki hüquqlarını bərpa etməyə nail olmamış və nəticə etibarilə, seçkilərin dürüstlüyünü və ictimaiyyətin demokratik prosesə olan etimadını sarsıtmışdır.

Bu işlər qrupunun icrası demokratiyanın gələcəyi üçün mühüm əhəmiyyətə malik olacaqdır.

# KEYS TƏHLİLİ (2)
## Jurnalistlərin müdafiəsi uğrunda mübarizə

Jurnalist Xədicə İsmayılova keçmiş Azərbaycan Prezidentinə və onun ailəsinə qədər gedib çıxan dövlət səviyyəli korrupsiya faktlarını ifşa edən araşdırma yazılarının müəllifidir. Bu amil onun davamlı təzyiq, hədə-qorxu, qarayaxma kampaniyalarının və ləyaqəti alçaldan təqibin daimi hədəfinə çevrilməsinə səbəb olmuşdur. O, 2012-ci ilin mart ayında özünün və sevgilisinin intim şəkilləri olan hədə-qorxu xarakterli məktublar almağa başladı. Qısa müddət sonra oxşar xarakterli iki ədəd video internetdə yayıldı. Tezliklə məlum oldu ki, **videolar gizli kamera ilə onun mənzilində çəkilib**. Lakin onun şikayətləri üzrə istintaq aparmaq əvəzinə, **prokurorluq orqanları onun sevgilisinin, dostlarının və ailə üzvlərinin kimliyini və əlaqə vasitələrini açıqlayan məlumat dərc etməklə xanım İsmayılovanın şəxsi həyatın toxunulmazlığı hüququnun daha bir pozuntusuna yol vermiş, dövlət nəzarətində olan qəzetlər isə onun əxlaqsız adlandırdıqları davranışı və intim həyatı barədə məqalələr dərc etməyə başlamışdı**. Sonda isə, **xanım İsmayılova saxta ittihamlarla həbs də edilmişdi**.

Xanım İsmayılova prokurorluq orqanlarından şikayət vermiş, qəzetləri məhkəməyə vermiş və cinayət ittihamları ilə Ali Məhkəməyə qədər mübarizə aparmışdır. Bütün ölkədaxili hüquqi müdafiə vasitələri səmərə vermədikdə isə xanım İsmayılova Avropa Məhkəməsinə üç ərizə ilə müraciət etmişdir. Bu işlərdə bir çox QHT-lər iştirak etmiş və onların verdiyi təqdimatlar İHAM tərəfindən mahiyyətcə əsaslı hesab edilmişdir. Avropa Məhkəməsi iki ardıcıl qərarla **Azərbaycanda ifadə azadlığı ilə bağlı vəziyyətin uzun müddətdir ki, narahatlıq doğurduğunu** qeyd etmiş, 8-ci və 10-cu maddələrin çoxsaylı pozuntusunu təsbit etmişdir.

”

**şikayət edilən əməllər ... insan ləyaqətini alçaldan xarakterli olmuşdur ... ərizəçi tanınmış jurnalistidir və onun peşə fəaliyyəti ilə yuxarıdakı şəxsi həyata müdaxilələr arasında ağlabatan bağlılıq olmuş və bu müdaxilələr onu susdurmaq məqsədi daşımışdır.**
**(İsmayılova Azərbaycana qarşı, 10 yanvar 2019, § 116).**



Tobias Tullius, Unsplash.com vasitəsilə

İHAM digər bir qərarı ilə müəyyən etmişdir ki, xanım İsmayılova barəsində həbs-qətimkan tədbirinin seçilməsi ilə onun azadlıq hüququ, təqsirsizlik prezumpsiyası hüququ pozulmuş və onun həbsinin məqsədi onu susdurmaq olmuşdur.

Bu qərarlar söz azadlığının müdafiəçiləri tərəfindən müsbət qarşılanmışdır. Lakin **Məhkəmə tərəfindən müəyyən edilmiş kompensasiya hələ də xanım İsmayılovaya ödənilməmişdir**. Bundan başqa, onun şikayətləri heç vaxt yenidən araşdırılmamış və məhkumluğu üzərindən götürülməmişdir. Nəticədə, **o, hal-hazırda 5 illik ölkədən çıxış qadağası altındadır və bank hesablarından istifadə edə bilmir**. Nazirlər Komitəsi 2020-ci il dekabr tarixli qərarı ilə səlahiyyətli orqanları hələ də tədbirlər planı təqdim etmədiklərinə görə tənqid etmiş, onlardan kompensasiyanı ödəməyi tələb etmiş və "Jurnalistlərin qorunmasına dair Tövsiyə"ni xatırladaraq onları təkidlə dövlət və qeyri-dövlət mənsubları tərəfindən edilən hədə-qorxu, hücum, təhqir və təzyiqlərin olmadığı əlverişli mühit yaratmağa çağırmışdır.

Bu müddət ərzində xanım İsmayılova **hökumətin ən yüksək eşelonlarında korrupsiya faktlarının ifşasında göstərdiyi cəsarət və qətiyyətə** görə "Dürüst həyat" mükafatına layiq görülmüşdür.

# QHT-LƏRİN İŞTİRAKI

QHT-lər və milli insan hüquqları institutları qərarların icrası prosesində mühüm rol oynayır. Onlar **9-cu Qayda çərçivəsində kommunikasiya sənədləri** və **qeyri-rəsmi brifinqlər** vasitəsilə müəyyən bir işlər qrupunun icrası ilə bağlı faktiki vəziyyətə aydınlıq gətirə və bu işlərin həddən artıq tez bağlanmasının qarşısını ala bilirlər.

Müəyyən işlər barədə daha ətraflı məlumat üçün aşağıdakı təşkilatlarla əlaqə saxlamaq mümkündür.

**Bakı İnsan Hüquqları Klubu**

Zərdabi prospekti 39,  AZ1100, Bakı, Azərbaycan

humanrightsclub.az@gmail.com

**Seçkilərin Monitorinqi və Demokratiyanın Tədrisi Mərkəzi**

Xudu Məmmədov küçəsi 33A/75, AZ1123, Bakı, Azərbaycan

info@smdtaz.org

AİŞ hüquq sahəsində potensialın gücləndirilməsi üçün Avropa Şurasına üzv dövlətlərdən olan QHT-lərlə əməkdaşlıq edir, məsləhətlər verir (o cümlədən 9.2-ci Qayda çərçivəsində kommunikasiya sənədinin necə yazılması barədə) və Strasburqda QHT-lər üçün platforma təmin edərək onlara qərarların icrası prosesində tam iştirak etməklə real dəyişikliklərə səbəb olmaq baxımından kömək edir.

# MƏNBƏLƏR

**Hüquq müdafiəçilərinin əsassız təqibə məruz qalmasına aid olan işlər qrupu barədə ("Məmmədli" işlər qrupu)**

Səlahiyyətli orqanların 20 sentyabr 2019-cu il tarixli Tədbirlər Planı: <https://search.coe.int/cm/Pages/result_details.aspx?ObjectID=090000168097d6cf>

Vətəndaş Həmrəyliyi, "Anar Məmmədliyə azadlıq!" (24 yanvar 2013-cü il): <http://mail.civicsolidarity.org/article/868/free-anar-mammadli>

Bakı İnsan Hüquqları Klubunun, Seçkilərin Monitorinqi və Demokratiyanın Tədrisi Mərkəzinin, Avropa İnsan Hüquqlarını Müdafiə Mərkəzinin, Avropa İcra Şəbəkəsinin, İnsan Hüquqları Evi Fondunun, İnsan Hüquqları Uğrunda Beynəlxalq Tərəfdaşlıq təşkilatının, Hüquq Maarifçiliyi Cəmiyyətinin və Niderland Helsinki Komitəsinin 22 oktyabr 2020-ci il tarixli kommunikasiya sənədi və səlahiyyətli orqanların 2 noyabr 2020-ci il tarixli cavabı:<http://hudoc.exec.coe.int/eng?i=DHDD(2020)971E>

Ərizəçi tərəfindən təqdim olunan 12 noyabr 2019-cu il tarixli kommunikasiya sənədi: <http://hudoc.exec.coe.int/eng?i=DH-DD(2019)1326E>

Ərizəçi tərəfindən təqdim olunan 17 avqust 2020-ci il tarixli kommunikasiya sənədi: <http://hudoc.exec.coe.int/eng?i=DH-DD(2020)720E>

Ərizəçi tərəfindən təqdim olunan 20 aprel 2020-ci il və 20 avqust 2020-ci il tarixli kommunikasiya sənədi: <http://hudoc.exec.coe.int/eng?i=DH-DD(2020)364E>

Səlahiyyətli orqanlar tərəfindən təqdim olunan 2 noyabr 2020-ci il tarixli kommunikasiya sənədi: <http://hudoc.exec.coe.int/eng?i=DH-DD(2020)970E>

Seçkilərin Monitorinqi və Demokratiyanın Tədrisi Mərkəzi tərəfindən təqdim olunan kommunikasiya sənədi: <http://hudoc.exec.coe.int/eng?i=DH-DD(2019)545E>

Nazirlər Komitəsinin 3 dekabr 2020-ci il tarixli qərarı: <http://hudoc.exec.coe.int/eng?i=CM/Del/Dec(2020)1390/H46-2E>

Avropa İcra Şəbəkəsi, "Seçkilərin monitorinqi üzrə mütəxəssis Anar Məmmədlinin saxlanması və həbsi" (9 aprel 2019-cu il): <http://www.einnetwork.org/blog-general/2019/4/9/azerbaijaniactivist-arrested-and-detained-the-anar-mammadli-case>

Avropa İcra Şəbəkəsi, "Azərbaycanda ədalətli seçki hüququnun məhdudlaşdırılması: Məmmədli işi" (23 may 2019-cu il): <http://www.einnetwork.org/azerbaijan/2019/5/23/restriction-torights-to-fair-elections-in-azerbaijan-the-mammadli-case>

Avropa Parlamentinin Azərbaycanla bağlı 10 sentyabr 2015-ci il tarixli qətnaməsi: <https://www.europarl.europa.eu/doceo/document/TA-8-2015-0316_EN.pdf>

Avropa Parlamentinin Azərbaycanla bağlı 16 yanvar 2019-cu il tarixli qətnaməsi: <https://www.europarl.europa.eu/doceo/document/RC-8-2019-0056_EN.html>

Avropa Sabitlik Təşəbbüsü, "Anar Məmmədli" (23 aprel 2015-ci il): <https://www.esiweb.org/anar-mammadli>

"Freedom Now" təşkilatı, "Anar Məmmədli və Bəşir Süleymanlı": <https://www.freedomnow.org/cases/anar-mammadli-and-bashir-sulemanli/>

İnsan Hüquqları Evi Fondu, "Hüquq müdafiəçisi və seçki müşahidəçisi Anar Məmmədli azad edilsin" (31 yanvar 2014-cü il): <https://humanrightshouse.org/articles/free-human-rights-defender-andelection-observer-anar-mammadli/

"İlqar Məmmədov Azərbaycana qarşı", Nazirlər Komitəsində icra prosesinə ümumi baxış: <http://hudoc.exec.coe.int/eng?i=004-56309>

Nazirlər Komitəsinin 5 mart 2020-ci il tarixli aralıq qətnaməsi: <http://hudoc.exec.coe.int/eng?i=001-202200>

İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin qərarı, Bölmə IV, “Məmmədli Azərbaycana qarşı”, 19 aprel 2018-ci il: <http://hudoc.echr.coe.int/eng?i=001-182178>

Venesiya Komissiyası tərəfindən qəbul edilmiş 19 oktyabr 2011-ci il tarixli rəy: <https://rm.coe.int/1680306ff7>

Venesiya Komissiyasının “Azərbaycan Respublikası tərəfindən dəyişikliklər edilmiş “Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında Qanun”a dair” 15 dekabr 2014-cü il tarixli rəyi: <https://rm.coe.int/1680306ff7>

Avropa Şurası Parlament Assambleyası, 29 yanvar 2014-cü il tarixli yazılı bəyannamə, “Azərbaycanlı hüquq müdafiəçisi və seçki müşahidəçisi Anar Məmmədli azad edilsin”: <https://pace.coe.int/en/files/20469>

BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarının 19 avqust 2014-cü il tarixli “BMT ekspertləri Azərbaycan Hökumətinə çağırışı edir: Hüquq müdafiəçilərinin təqibi dayandırılmalıdır” adlı press-relizi: <https://www.ohchr.org/EN/NewsEvents/Pages/DisplayNews.aspx?NewsID=14952&LangID=E>

BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarının 20 avqust 2015-ci il tarixli “BMT ekspertləri Azərbaycanda hüquq müdafiəçilərinə qarşı çıxarılan “çox üzücü” azadlıqdan məhrumetmə qərarlarını pisləyir” adlı press-relizi: <https://www.ohchr.org/en/NewsEvents/Pages/DisplayNews.aspx?NewsID=16337&LangID=E>

“Rəsul Cəfərov Azərbaycana qarşı”, Nazirlər Komitəsində icra prosesinə ümumi baxış: <http://hudoc.exec.coe.int/eng?i=004-1605>

Avropa Şurasının İnsan Hüquqları üzrə Komissarının “İnsan Hüquqları üzrə Avropa Konvensiyası”nın 36-cı maddəsinin 3-cü bəndinə əsasən “Anar Məmmədli Azərbaycana qarşı” işinə (ərizə № 47145/14) üçüncü tərəf kimi qoşulması: <https://rm.coe.int/third-party-intervention-by-the-council-of-europecommissioner-for-hum/16806daa96>

Statistika barədə

HUDOC-EXEC məlumat bazasından götürülmüş statistik məlumatlar: <https://hudoc.exec.coe.int/ENG#{%22EXECDocumentTypeCollection%22:[%22CEC%22]}> (27 noyabr 2020-ci il tarixinə olan vəziyyəti əks etdirir)

Azərbaycana dair ölkə məlumat bülleteni: <https://rm.coe.int/168070973e>

AİŞ ölkə səhifəsi: < http://www.einnetwork.org/ukraine-echr >

AİŞ-in statistik məlumatlara dair izahı: <http://www.einnetwork.org/about-our-data>

Azad və ədalətli seçki hüququna aid işlər qrupu barədə (Əliyev işlər qrupu)

Səlahiyyətli orqanlar tərəfindən təqdim olunan 11 fevral 2015-ci il tarixli kommunikasiya sənədi: <http://hudoc.exec.coe.int/ENG?i=DH-DD(2015)179E>

Səlahiyyətli orqanlar tərəfindən təqdim olunan 13 noyabr 2019-cu il tarixli kommunikasiya sənədi: <http://hudoc.exec.coe.int/ENG?i=DH-DD(2019)1330E>

Səlahiyyətli orqanlar tərəfindən təqdim olunan 3 dekabr 2013-cü il tarixli kommunikasiya sənədi: <http://hudoc.exec.coe.int/ENG?i=DH-DD(2013)1306E>

Seçkilərin Monitorinqi və Demokratiyanın Tədrisi Mərkəzi tərəfindən təqdim olunan 18 aprel 2018-ci il tarixli kommunikasiya sənədi: <http://hudoc.exec.coe.int/ENG?i=DH-DD(2019)512E>

Seçkilərin Monitorinqi və Demokratiyanın Tədrisi Mərkəzi tərəfindən təqdim olunan 22 oktyabr 2019-cu il tarixli kommunikasiya sənədi: <http://hudoc.exec.coe.int/ENG?i=DH-DD(2019)1295E>

Nazirlər Komitəsinin 26 sentyabr 2013-cü il tarixli qərarı: <http://hudoc.exec.coe.int/ENG?i=CM/Del/Dec(2013)1179/2>

Nazirlər Komitəsinin 5 dekabr 2013-cü il tarixli qərarı: <http://hudoc.exec.coe.int/ENG?i=CM/Del/Dec(2013)1186/4>

Nazirlər Komitəsinin 5 dekabr 2019-cu il tarixli qərarı: <http://hudoc.exec.coe.int/ENG?i=CM/Del/Dec(2019)1362/H46-3E>

Nazirlər Komitəsinin 5 iyun 2014-cü il tarixli qərarı: <http://hudoc.exec.coe.int/ENG?i=CM/Del/Dec(2014)1201/3>

Nazirlər Komitəsinin 5 mart 2020-ci il tarixli qərarı: <http://hudoc.exec.coe.int/ENG?i=CM/Del/Dec(2020)1369/H46-4F>

İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin 8 aprel 2010-cu il tarixli qərarı, Bölmə I, "Nemət Əliyev Azərbaycana qarşı" işi üzrə, ərizə № 18705/06: <http://hudoc.echr.coe.int/eng?i=001-98187>

ATƏT-in Azərbaycan Respublikasındakı Beynəlxalq Seçki Müşahidə Missiyası: "11 aprel 2018-ci il tarixində keçirilmiş növbədənkənar prezident seçkiləri haqqında ilkin nəticə və rəylər haqqında bəyanat": <https://www.osce.org/files/f/documents/e/4/377617.pdf>

ATƏT-in Azərbaycan Respublikasındakı Beynəlxalq Seçki Müşahidə Missiyasının 9 fevral 2020-ci ildə keçirilmiş növbədənkənar parlament seçkiləri haqqında yekun hesabatı: <https://www.osce.org/files/f/documents/7/e/457585_0.pdf>

Azad Avropa Radiosu-Azadlıq Radiosu, "Avropa Məhkəməsi Azərbaycanı seçki saxtakarlığında təqsirli hesab edib" (9 aprel 2010-cu il): <https://www.rferl.org/a/European_Court_Finds_Azerbaijan_Guilty_Of_Election_Fraud_/2007281.html>

Səlahiyyətli orqanların 27 fevral 2014-cü il tarixli dəyişiklik edilmiş Tədbirlər Planı: <http://hudoc.exec.coe.int/ENG?i=DH-DD(2014)277revE>

AŞPA-nın seçkiqabağı nümayəndə heyəti tərəfindən 24 yanvar 2020-ci il tarixində verilmiş bəyanat: <http://assembly.coe.int/nw/xml/News/News-View-EN.asp?newsid=7752&lang=2&cat=31>

Səlahiyyətli orqanların 20 fevral 2018-ci il tarixli yenilənmiş Tədbirlər Planı: <http://hudoc.exec.coe.int/ENG?i=DH-DD(2018)178E>

Səlahiyyətli orqanların 3 iyul 2014-cü il tarixli yenilənmiş Tədbirlər Planı: <http://hudoc.exec.coe.int/ENG?i=DHDD(2014)873E>

Jurnalistlərin müdafiəsinə aid olan işlər qrupu barədə (Xədicə İsmayılova işlər qrupu)

Məhkəmənin Qaydalarının 44(3) saylı Qaydasına uyğun olaraq "Article 19", "PEN International", Beynəlxalq Mediaya Dəstək (IMS), İnsan Hüquqları Uğrunda Beynəlxalq Tərəfdaşlıq təşkilatı (IPHR) və Jurnalistləri Müdafiə Komitəsinin (CPJ) "Xədicə Rövşən qızı İsmayılova Azərbaycana qarşı" işinə (ərizə № 30778/15) üçüncü tərəf kimi qoşulmaq üçün 19 yanvar 2016-cı il tarixli birgə müraciəti: <https://peninternational.org/app/uploads/archive/2016/01/Third-Party-Intervention_Khadija-Ismayilova.pdf>

Beynəlxalq Amnistiya təşkilatı, "Avropa Məhkəməsi Azərbaycanın Xədicə İsmayılovanı susdurmaq və cəzalandırmaq üçün həbs etdiyi barədə qərar çıxarır" (27 fevral 2020-ci il): <https://www.amnesty.org/en/latest/news/2020/02/european-court-rules-azerbaijan-imprisonedkhadija-ismayilova-to-silence-and-punish-her/>

Ərizəçi tərəfindən təqdim olunan 1 iyul 2020-ci il tarixli kommunikasiya sənədi: <http://hudoc.exec.coe.int/eng?i=DHDD(2020)939E>

Nazirlər Komitəsinin 3 dekabr 2020-ci il tarixli qərarı: <http://hudoc.exec.coe.int/eng?i=CM/Del/Dec(2020)1390/H46-3E>

İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin qərarlarının icrası İdarəsi - Ödənilməsi gözlənilən ödənişlərə və natamam daxil olmuş informasiyalara dair məlumatlar (16 dekabr 2020-ci il tarixinə olan vəziyyət): <https://rm.coe.int/CoERMPublicCommonSearchServices/DisplayDCTMContent?documentId=09000016805a9af7>

Avropa İcra Şəbəkəsi, “Jurnalistikanın təqibi: Xədicə İsmayılova işi” (18 iyun 2020-ci il): <http://www.einnetwork.org/blog-general/2020/6/18/persecution-of-journalism-thecase-of-khadija-ismayilova>

Beynəlxalq Qadın Media Fondu, “Azərbaycanda şantaj və korrupsiya: Xədicə İsmayılovanın “həqiqət ovu” və ictimaiyyəti məlumatlandırdığı üçün çəkdiyi cəza“: <https://www.iwmf.org/community/khadija-ismayilova/>

İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin 10 yanvar 2019-cu il tarixli qərarı, Bölmə IV, “Xədicə İsmayılova Azərbaycana qarşı” işi üzrə (ərizə № 65286/13 və 57270/14): <http://hudoc.echr.coe.int/eng?i=001-188993>

İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin 10 yanvar 2019-cu il tarixli qərarı, Bölmə IV, “Xədicə İsmayılova Azərbaycana qarşı” işi üzrə (ərizə № 65286/13 və 57270/14): <http://hudoc.echr.coe.int/eng?i=001-188993>

İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin 7 may 2020-ci il tarixli 3 saylı qərarı, Bölmə IV, “Xədicə İsmayılova Azərbaycana qarşı” işi üzrə (ərizə № 35283/14): <http://hudoc.echr.coe.int/eng?i=001-201340>

İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin 27 fevral 2020-ci il tarixli 2 saylı qərarı, Bölmə IV, “Xədicə İsmayılova Azərbaycana qarşı” işi üzrə (ərizə № 30778/15): <http://hudoc.echr.coe.int/eng?i=001-202423>

Ödənişsiz ensiklopediya saytı olan Vikipediyada Xədicə İsmayılova haqqında səhifə: <https://en.wikipedia.org/wiki/Khadija_Ismayilova>

Media Hüququ İnstitutu, “İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin qərarlarının Azərbaycanda icrası” (may, 2014-cü il): <https://static1.squarespace.com/static/55815c4fe4b077ee5306577f/t/5a38008c8165f5e58abbce41/1513619600637/REPORT-ECtHR-implemE+%281%29.pdf>

Nazirlər Komitəsinin gündəliyindən qeydlər: <http://hudoc.exec.coe.int/eng?i=CM/Notes/1390/H46-3E>

ATƏT-in media azadlığı üzrə nümayəndəsi, “Azərbaycanda jurnalistlərə qarşı təzyiqlər və zorakılıqlar acınacaqlıdır,” deyən ATƏT-in Media Azadlığı Nümayəndəsi cəld istintaq aparılmasına çağırır (12 fevral 2020-ci il): https://www.osce.org/representative-on-freedom-of-media/446035

“Pen America” təşkilatı, “Yazarlar risk altında: Xədicə İsmayılova”: <https://pen.org/advocacy-case/khadijaismayilova/>

Nazirlər Komitəsi tərəfindən 13 aprel 2016-cı ildə qəbul olunmuş “Jurnalistikanın müdafiəsi və jurnalistlərin və digər media mənsublarının təhlükəsizliyi barədə Nazirlər Komitəsinin Üzv Dövlətlərə CM/Rec(2016)4[1] saylı Tövsiyəsi”: <https://www.coe.int/en/web/freedom-expression/committee-ofministers-adopted-texts/-/asset_publisher/aDXmrol0vvsU/content/recommendation-cm-rec-2016-4-ofthe-committee-of-ministers-to-member-states-on-the-protection-of-journalism-and-safety-of-journalists-and-other-media->

Nazirlər Komitəsi tərəfindən 13 aprel 2016-cı ildə qəbul olunmuş “Jurnalistikanın müdafiəsi və jurnalistlərin və digər media mənsublarının təhlükəsizliyi barədə Nazirlər Komitəsinin Üzv Dövlətlərə CM/Rec(2016)4[1] saylı Tövsiyəsi”: <https://www.coe.int/en/web/freedom-expression/committee-ofministers-adopted-texts/-/asset_publisher/aDXmrol0vvsU/content/recommendation-cm-rec-2016-4-ofthe-committee-of-ministers-to-member-states-on-the-protection-of-journalism-and-safety-of-journalists-and-other-media->

Avropa Şurasının İnsan Hüquqları üzrə Komissarının 22-24 may 2013-cü il tarixlərində Azərbaycana səfərindən sonra hazırladığı CommDH(2013)14 saylı, 6 avqust 2013-cü il tarixli hesabat: <https://www.ecoi.net/en/file/local/1329214/1226_1376390231_commdh-2013-14-e.pdf>

“Dürüst Həyat” Fondu, Xədicə İsmayılova (2017-ci il, Azərbaycan): <https://www.rightlivelihoodaward.org/laureates/khadija-ismayilova/>

**Bütün hiper-keçidlər 28 dekabr 2020-ci il tarixinə olan vəziyyətə görə dəqiqdir.**



# İNSAN HÜQUQLARI ÜZRƏ AVROPA MƏHKƏMƏSİNİN QƏRARLARININ İCRASI: AZƏRBAYCAN

Avropa İcra Şəbəkəsi

Yanvar, 2021-ci il